

**Görkəmli Azərbaycan bəstəkarı, xalq artisti, professor Xəyyam Mirzəzadənin əsərləri özünün bir sıra digər vacib və yaddaqalan xüsusiyyətləri ilə yanaşı, formayaradıcı xüsusiyyətləri ilə də diqqəti cəlb edir. Onun əsərlərində formayaradıcı xüsusiyyətlər indiyə qədər yetəri dərəcədə tədqiq edilməmişdir. Bu baxımdan hazırki məqalə Mirzəzadə yaradıcılığının ilk dövrünə aid 1 saylı simli kvartetin musiqi formasına həsr olunur.**

# Xəyyam Mirzəzadə

## 1 saylı simli kvartetin formayaradıcı xüsusiyyətləri

**Əsərin formayaradıcı xüsusiyyətlərini əmələ gətirən ən əsas cəhət forma daxilində hissələrin vahid tematik bağlılığıdır. Bəstəkar yaradıcılığının hələ ilk mərhələsindən etibarən özünü göstərən bu cəhət onun sonrakı dövrlərdə yazdığı əsərlərinin vacib xüsusiyyəti olaraq qalmışdır. Yaradıcılığının bütün dövrlərində bu mövqedən çıxış edərək, müəllif, forma daxilində hissələrin vahid tematik bağlılığını əsas formayaradıcı prinsip kimi götürmüşdür. Odur ki, bəstəkar yaradıcılığının ilk mərhələsinə aid 1 saylı simli kvartet (1956), bu dövrdə yazılan bir sıra digər əsərlər kimi ( 1 saylı Simfoniya (1957), simli kvartet üçün dörd "Miniatür" (1958)) forma - strukturunda əsas formayaradıcı prinsip olan hissələrin vahid tematik bağlılığına əsaslanır.**

1 saylı simli kvartet klassik formaya malikdir. Bundan başqa, həm də kvartetin dramaturji ideyası kifayət qədər aydındır. Lirik - janrvari silsilədə klassik normalara dəqiq riayət olunmasını kvartetin 4 hissəli quruluşunda aydın görmək olar.

Kvartetin I hissəsinin (Alleqro moderato, e - moll ) lirik - dramatik sonata - allegrosu bir növ başlanğıcıdır. II hissədəki (Vivo scherzando, G - dur ) janrvari skertsoluluq bir qədər sakitləşmə daxil edir. III hissə (Andante, a - moll ) kvartetin lirik xəttini tamamilə yeni tərzdə inkişaf etdirir. Rondo formasında olan final (Allegro, E - dur ) əsərdəki bütün lirik - janrvari obrazları sintezləşdirərək, silsiləyə yekun vurur. Fikrimizi əsaslandırmaq üçün əsərin I hissəsinin musiqi formasına diqqət yetirək :

## I SİMLİ KVARTETİN SXEMİ
## I HİSSƏ

| Ekspozisiya | İşlənmə | Repriza | Koda |
|---|---|---|---|
| əsas mövzu e - mol Alleqro moderato; köm. mövzu B - dur Meno mosso r. 6 | a - moll Tempo I, r. 15 (I dalğa - əsas m. üz - də ); b - moll, r. 21 (II dalğa - köm. m. üz - də); Kulminasiya (əsas m. üz - də), r. 24 - a tempo, sul G. | Dinamik, bütün təkrarlar ixtisar edilib. əsas m. üz - də; köm.m. Meno mosso r. 31 E - dur | r. 34 con sord. |

Əsərin formasına daha dərindən nüfuz etdikcə, yalnız ilk baxışda klassik formalara riayət edilməsi özünü göstərir, belə ki, burada forma baxımından bir sıra maraqlı tapıntılar əldə olunmuşdur. Bu məqamlardan daha ətraflı bəhs edək. Misal üçün, kvartetin II hissəsində forma daxilində forma əmələ gəlir. Mürəkkəb üçhissəli (triolu) formada yazılmasına baxmayaraq, bütün II hissə boyu əsas materialın təkrar olunması rondo formasındakı refreni xatırladır. Digər tərəfdən, burada variasiyalı inkişaf prinsipindən də istifadə olunmuşdur. Bəstəkar mövzunun formasında əksər Azərbaycan xalq mahnı və rəqslərində rast gəlinən ikihissəli (a b) quruluş tətbiq edir, b burada a - dan əmələ gəlir :

**a** - Vivo scherzando ( mövzu, səh. 19)

**b** - eyni səhifədə son üç xanə ( I V - no )

## II HİSSƏ
## SXEM

| I HİSSƏ (A) | II HİSSƏ (B) | III HİSSƏ (A) | KODA |
|---|---|---|---|
| Vivo scherzando G - dur | Piu lento, C - dur r. 11 | Tonal repriza r. 25 | r. 29 |

Kvartetin III hissəsində isə formadaxili hissələrin vahid tematik bağlılığı aşağıdakı kimi özünü göstərir. Bu hissənin mövzusu (Andante) I hissənin mövzusundan əmələ gəlmişdir. Yəni kvartetin ən ifadəli lirik mərkəzi olan III hissənin mövzusu öz başlanğıcını I hissənin əsas və köməkçi mövzusunun lirik - janrvariliyindən götürərək, bununla da həmin inkişaf xəttini davam etdirir.

Qeyd edək ki, kvartetin III hissəsi mürəkkəb üçhissəli formada yazılıb və hər hissə öz növbəsində 3 hissəli quruluşa malikdir. Qəliz forma daxilində hər hissədə forma tənasüblüyü xüsusilə diqqəti cəlb edir və bu, öz növbəsində III hissəyə tamlıq gətirir :

## III HİSSƏ
## SXEM

| A | | | B | | | A | | |
|---|---|---|---|---|---|---|---|---|
| a | b | al | c | d | cl | a2 | bl | a3 |
| a-moll, IV-no solo 37 xanə | Des-dur r.3-ə qədər IV-no | a-moll r. 3 Celli solo | Piu mosso IV-no r. 8 | dramatik epizod r. 10 | dinamik repriza r. 12 | Andante r. 13 IV-no solo | es-moll I hissədən b-nin təkrarı | lakonik repriza Celli solo Koda |



Kvartetin IV hissəsi sintetik Final tipidir. Onu diqqətlə təhlil edərkən görürük ki, heç bir mövzu və epizod yeni deyil. Digər hissələrdə olduğu kimi, burada da I hissənin mövzu - özəyinin transformasiyası bünövrəni təşkil edir. Deməli, final özündən əvvəlki üç hissənin bütün tərkib elementlərini (I hissənin əsas, köməkçi, II hissə - skertso, III hissə Andante mövzularını) bir yerə cəmləşdirir.

Quruluş etibarilə Final, Rondo - Sonata formasında yazılıb. IV hissənin Refren mövzusu I hissənin əsas mövzusunun dinamik özəyindən təkan alır. Aydınlıq üçün qeyd edək ki, bu üçsəsli motiv kvartetin üç hissəsini daxildən bir - birinə bəndləyən mühüm amildir.

IV hissənin reprizasının quruluşu da qeyri - adidir. Burada refren (A) mövzusunun A1 keçidi ixtisar edilib, onun yığcamlaşdırılması və sona doğru sürətlənməsi formanın dinamikliyini yaradır.

## IV HİSSƏ
## SXEM

| A | B | A | C | A |
|---|---|---|---|---|
| Refren, Alleqro E - dur, sadə 3 hissəli forma I - unison ifa, II - dialoq fakturalı, III - dinamik repriza | I epizod Meno - mosso Basso- ostinato a - moll | Refren Tempo I Es - dur V - le, Cello | Mərkəzi epizod g - moll, Sadə 3 hissəli forma, r.8 I - unison ifa II- əsas mövzunun artırılmış keçidi III - repriza | Refren E - dur, r. 10, Tempo I, B epizodun əsasında dinamik 3 hissəli repriza I - a (A - refren) II - b (B - epizod) III - a (A - refren) Koda - r.14 E - dur |

**Beləliklə, Xəyyam Mirzəzadənin 1 saylı simli kvartetini nəzərdən keçirərkən, forma etibarilə musiqi dramaturgiyasında ideya - bədii tamlığı, silsilədaxili mövzuların tematik bağlılığı bir daha öz təsdiqini tapır və forma daxilində hissələrin vahid tematik bağlılığı bəstəkarın növbəti əsərlərində davam etdirilir.**

● **Kəmalə ƏLƏSGƏRLİ,**
***sənətşünaslıq namizədi***

## Ədəbiyyat

1. Асафьев Б. Музыкальная форма как процесс,кн. 1-2, Л., 1971.
2. Теоретические проблемы музыкальных форм и жанров. Сб. статьей, М., 1971.
3. Скребков С. Художественные принципы музыкальных стилей, М., 1973.

## РЕЗЮМЕ

В данной статье автором К. Алескерли впервые исследуется формообразовательные черты первого струнного квартета выдающегося Азербайджанского композитора Хайяма Мирзазаде. На основе теоретического анализа автор характеризует музыкальную форму произведения.

## SUMMARY

This article is the first time devoted to the study of form - making up of the firth string quartet by the outstanding Azerbaijani composer Khayam Mirsasade. On the basis of the theoretical analysis the characterizes the musical form of the work.

**Təqdim etdi:** BMA-nın Musiqi tarixi və Musiqi nəzəriyyəsi kafedraları
**Elmi rəhbər:** sənətşünaslıq namizədi, professor Ülviyyə İmanova